

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 118 (23.760)

2 iyul 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib. Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektar olacaq. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.

Diqqətə çatdırılıb ki, zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasının təməlini qoyub. Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

## Bərpa olunan enerji mənbələrindən istifadə muxtar respublikanın energetika infrastrukturunda mühüm yer tutur



*İyunun 18-də Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verildi. Elektrik enerjisinə olan tələbatın 50 faizdən çoxunun bərpa olunan enerji mənbələri hesabına ödənilən muxtar respublikada yeni tip stansiyanın quraşdırılması həm də qədim diyarda innovativ layihələrin həyata keçirilməsi baxımından diqqət çəkir.*

Məlum olduğu kimi, külək enerjisi bərpa olunan enerji olaraq son dövrlər geniş yayılıb. Xüsusilə külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisindən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisi hesab olunur. Həmçinin külək qurğularının inşasına ənənəvi elektrik stansiyalarının qurulmasına nisbətən daha az vaxt sərf olunur. Bundan başqa, külək, əslində, istənilən ölkənin malik olduğu daimi təbii enerji mənbəyidir. Külək enerjisindən istifadə olunması energetikanın daha tez inkişaf edən sahələrindən biridir. Təsadüfi deyil ki, hazırda Danimarka, Portuqaliya, Avstraliya, İrlandiya, İspaniya və Almaniya kimi ölkələrdə bu tip enerji mənbələrindən istifadə daha geniş yayılıb.

Külək enerjisindən istifadədə mühüm rolu coğrafi infrastruktur oynayır. Doğrudur, muxtar respublika ərazisinin şimal tərəfdən Kiçik Qafqaz dağları ilə əhatə olunması külək axınını ləngitsə də, Culfa rayonu ərazisində mövcud relyef hava axınına imkan verən külək dəhlizlərinin yaranmasına şərait yaradır. Bu isə haqqında bəhs etdiyimiz enerji istehsalına imkan verir.

Külək-Günəş Hibrid Elektrik Stansiyasının açılış mərasimində muxtar respublika rəhbərinə məlumat verildi ki, 2019-cu il avqustun 26-da Bakı şəhərində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti ilə Çin Xalq Respublikası Ticarət Nazirliyi arasında Naxçıvan Muxtar Respublikasına mobil elektrik stansiyalarının verilməsi haqqında imzalanmış müqaviləyə əsasən Naxçıvan Muxtar Respublikasına 2 dəst 200 kilovat gücündə "ISUZU" markalı dizel generator maşını, 410 dəst 2 kilovat gücündə mobil Günəş Elektrik Stansiyası, 410 dəst günəş suqızdırıcısı, 6 dəst 10 kilovatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyası qurğusu verilmişdir. Naxçıvan Dövlət Universitetində Elektroenergetika ixtisası üzrə təhsil alan tələbələrin bilikləri təcrübə ilə daha dərindən mənimsəmələri, yeni texnologiyalarla yerində tanış olmaları üçün Universitet şəhərciyində 1 ədəd 10 kilovat gücündə "Külək-Günəş Hibrid Elektrik Enerjisi Mənbəyi" və 1 dəst günəş suqızdırıcısı quraşdırılmışdır. Digər 5 dəst külək turbinlərinin və günəş panellərinin təyinatları dəyişdirilərək Culfa rayonunun Gülüstan kəndi yaxınlığında 3,3 hektar ayrılmış əkinəyararsız ərazidə komplektləşdirilərək 1,1 meqavatlıq yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası tikilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılış mərasimində demişdir: ***"Muxtar respublikanın ərazisində ilk dəfə olaraq Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilir. Hər bir ölkənin inkişafının əsas göstəricisi enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bu gün muxtar respublikanın inkişafının əsas hərəkətverici qüvvəsi elektrik enerjisinə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsidir. Enerji harada varsa, orada inkişaf var, həyat var. Hazırda muxtar respublikada elektrik enerjisinə olan tələbatın 50 faizdən çoxu bərpa olunan enerji mənbələri hesabına ödənilir. Bu da imkan verir ki, həm əhalinin, həm də sənayenin və iqtisadiyyatın digər sahələrinin enerji təminatı davamlı olsun. Həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin ucuz qiymətə elektrik enerjisi istehsal etməsi imkan verəcək ki, gələcəkdə elektroenergetika sahəsi daha da inkişaf etdirilsin. Culfa rayonunun ərazisi həm küləkli, həm də günəşlidir. Sınaq məqsədilə yaradılan elektrik stansiyası gələcəkdə növbəti külək elektrik stansiyalarının qurulması üçün əsas verəcəkdir".***

Qeyd edək ki, buradakı Külək-Günəş Hibrid Elektrik Stansiyasında hər birinin gücü 280 vatt olan 3520 müasir alüminium çərçivəli günəş paneli, 50 kilovat gücü olan 20 invertor, 11 ədəd 10 kilovat gücü olan invertor-controller, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları quraşdırılmışdır. Daxilində 10/0,4 kilovoltluq transformator, 10 kilovoltluq qapalı paylayıcı və 0,4 kilovoltluq paylayıcı və idarəetmə otaqları inşa edilib. Alçaq və yüksəkgərginlikli, eləcə də rabitə, müşahidə və idarəetmə sistemləri üçün kabel xətləri çəkilib, ərazi çəpərlənib, stansiya 10 kilovoltluq "6 saylı şəhər" hava elektrik verilişi xəttinə qoşulub. Burada il ərzində 1,6 milyon kilovat-saat elektrik enerjisi istehsalı nəzərdə tutulub. Külək potensialını ətraflı araşdırmaq üçün daha 7 ədəd 10 kilovatlıq külək turbini sifariş olunaraq gətirilib və onlardan 6-sı artıq quraşdırılıb. Ümumilikdə, stansiyada 11 külək turbini quraşdırılıb.

Ali Məclisin Sədri stansiyanın açılış mərasimində bir məsələyə də toxundu. Qeyd etdi ki, yeni elektrik stansiyası Culfa rayonunda enerji tələbatının 10 faizdən çoxunu ödəyəcəkdir. Gələcəkdə yeni stansiyalar qurulduqdan sonra isə rayona kənardan enerji daşınmasına ehtiyac qalmayacaqdır. Stansiyada yeni iş yerləri də açılıb ki, bu da yeni mütəxəssislərin yetişməsinə, gələcəkdə digər stansiyaların yerli mütəxəssislər tərəfindən idarə olunmasına imkan verəcəkdir.

Xatırladaq ki, son dövrlərdə muxtar respublikada bərpa olunan enerji mənbələrindən istifadə üçün mühüm energetika infrastrukturu yaradılır. Ötən dövrdə tikilmiş Günəş Elektrik stansiyalarında istehsal olunan enerjinin həcmi muxtar respublikanı bu sahədə ölkə birincisi edib. Muxtar respublikada bu tip enerji mənbələrindən istifadəni ölkə başçısı cənab İlham Əliyev də yüksək qiymətləndirib. Naxçıvan Muxtar Respublikasına son səfərində dövlət başçısı demişdir: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".***

*Bəli, bərpa olunan enerji mənbələrindən istifadə muxtar respublikada həyata keçirilən enerji təhlükəsizliyi siyasətində ön yerdə dayanır. Yeni istifadəyə verilmiş 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası da Naxçıvanın ekoloji mühitinə yeni töhfədir. İnanırıq ki, bu sahədə mühüm addımların atıldığı muxtar respublikada bundan sonra da ekologiyamıza bu cür töhfələrin verildiyinin şahidi olacağıq.*

**Səbuhi HƏSƏNOV**

## Test imtahanları başa çatıb



Müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsi dövlət qulluğu sahəsində həyata keçirilən islahatların əsas istiqamətlərindən biridir. Dövlətə və cəmiyyətə xidmət üçün lazımi keyfiyyətlərə malik dövlət qulluqçularının formalaşdırılması, habelə dövlət qulluğu sferasının yüksək peşəkarlığa malik, vicdanlı, məsuliyyətli və Vətənə sədaqətli işçilərin cəlb olunmaqla komplektləşdirilməsi üçün mütəmadi olaraq müsabiqələr keçirilir.

Qeyd olunanlara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilən müsabiqənin test mərhələsi başa çatıb.

7-22 iyun tarixlərində keçirilən test imtahanının nəticələrinə əsasən 662 namizəd imtahanlarda iştirak edib, 285 namizəd isə müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Müsahibə mərhələsinə sənəd qəbulu test imtahanları bitdikdən sonra bir ay müddətində – iyulun 22-nə qədər davam edəcək.

Xatırladaq ki, müsabiqəyə çıxarılmış 59 vakant vəzifənin tutulması üçün 729 müraciət qeydə alınmışdı. Müraciət edənlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi (148 nəfər), Təhsil Nazirliyi (142 nəfər), Dövlət Sosial Müdafiə Fondu (140 nəfər) öndə dayanır. Ən sıx müsabiqə vəziyyətinin yarandığı dövlət orqanı isə Gənclər və İdman Nazirliyidir. Nazirliyin təqdim etdiyi bir vakant vəzifənin tutulması üçün 100 namizəd qeydiyyatdan keçib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

***“Əkinçi”nin xələfi, onlarla mətbu orqanın sələfidir “Şərq qapısı” qəzeti. Dövrün keşməkeşlərinə, “soyuğuna”, “boranına”, tarixin dolanbac yollarına sinə gərərək 100-cü mərtəbəyə çatan birəsrlik ziyalılıq ünvanıdır “Şərq qapısı”. Uzun illərin mətbuat işçisi kimi yazımın elə bu məqamındaca bir nüansı vurğulamaq istəyirəm. Qəzet işi kütləvi informasiya vasitələrinin ən çətin, məsuliyyətli, qabiliyyət, bacarıq, səriştə, yaradıcılıq, hərtərəfli bilik, dünyagörüş, yenilikçi olmağı tələb edən qoludur. Çünki burada görüntü də, müxtəlif mənzərələr, keçidlər, fraqmentlər, bəzən fotoların hər biri sözdür. O söz elə düzülüb-qoşulmalı, elə bir tərzdə ifadə, təqdim olunmalıdır ki, oxucu yazını oxuyarkən sözlər onun qarşısında jurnalistin məqsədinin mənzərəsini açsın. Bu anda müəllif özünü doğrulda bilir. Əks-təqdirdə isə həmin yazı, sadəcə, səhifəni doldurmaq xatirinə yazılmış yazı olaraq oxucuda təəssürat yaradır. Həm də qəzet deyəndə göz önünə ikiistiqamətli mətbu orqan gəlir. Biri dövlət orqanını təmsil edən, digəri sərbəst qəzet. Elə dövlət orqanı olan “Şərq qapısı” qəzetinin birəsrlik yolda uğurla irəliləməsi, bu uğuru 100 ilin tamamına gətirib çıxara bilməsi özü bu mətbu orqan və onun “həyatından” keçən onlarla jurnalist haqqında söhbət açır.***



# “Şərq qapısı” – 100

## “Şərq qapısı” qəzeti və blokada Naxçıvanı
### yaxud 100-ün 30-u

### *Keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamə*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı, nəinki muxtar respublika, bütövlükdə, Azərbaycan mətbuatı işçiləri və kütləvi oxucular tərəfindən sevinclə qarşılanmışdır. Çünki bu qəzet ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyə almışam. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”***, – deyən ümummilli lider Heydər Əliyevin yüksək qiymət verdiyi mətbu orqandır. Digər tərəfdən “Şərq qapısı” qəzetinin fəaliyyətinin ən şərəfli səhifələri ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövründə – 1990-1993-cü illərdə yazılmışdır. Bu dövrdə “Şərq qapısı” milli və müstəqil dövlətçiliyimizin qorunmasında ulu öndərin ideyalarının əksini tapdığı, böyük şəxsiyyətin imzaladığı rəsmi sənədlərin ilk dəfə çap olunduğu mətbuat orqanıdır. Digər bir tərəfdən isə “Şərq qapısı” qəzeti yaşına görə ölkəmizdə barmaqla sayılacaq mətbu orqanlar sırasındadır. Eyni zamanda kütləvi oxucusu olan, muxtar respublika ilə bağlı xəbərlərin, məlumatların rəsmi mənbəyidir. Beləliklə, 100 yaşlı “Şərq qapısı” qəzeti müvafiq Sərəncamda da deyildiyi kimi, keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamədir.

### *“Şərq qapısı” qəzeti və blokada Naxçıvanı*

100 yaşının 30 ilini blokada şəraitində yaşamağa olan Naxçıvanın gündəlik ictimai-siyasi həyatının güzgüsü sayılan “Şərq qapısı” qəzeti bir qərinəyə yaxın dövrün ən dəyərli, zəngin arxivi, muxtar respublika tarixinin saxlanc yeridir. “Blokada Naxçıvanı” kitabında da qeyd etdiyim kimi, kitabın hazırlanması ilə bağlı arxiv, kitabxana və muzeylərdə oldum. Heç bir yerdə “Şərq qapısı” qəzetində olduğu kimi müfəssəl, hərtərəfli, tutarlı və davamlı faktlara rast gəlmədim. Bu nöqteyi-nəzərdən “Şərq qapısı”, nəinki Naxçıvanın blokada illərinin, əhatə etdiyi 100 ilin ən gözəl tədqiqat obyektidir. Lakin ötən 100 ilin son 30 ilinin Naxçıvan üçün daha çətinliklərlə və uğurlarla dolu olduğunu nəzərə alsaq, bu qəzetin Naxçıvanın həyatındakı rolu əvəzsizdir. Blokadanın ilk illərində çətinliklərlə üz-üzə qalması, 20 Yanvar hadisələrinin acısını yaşayaraq adının bir neçə dəfə dəyişdirilməsi, nəşr problemləri “Şərq qapısı”nın əzəmətini sındıra bilmədi. Nə yaxşı da sındıra bilmədi ki, qəzet ötən 30 ilin salnaməsinə çevrildi. Elə bütün bunları nəzərə alıb qəzetin 1990-cı illərdə nəşr olunan nömrələrinə yenidən müraciət etməyi özümə borc bildim. Çünki biz jurnalistlər bir məsələni nə qədər təkrar söyləyəriksə, bir o qədər bugünkü nəsli ötən dövrlərin hadisələri ilə xəbərdar etmiş, qəzetinsə əvəzsiz xidmətindən söz açmış olarıq. Qəzet yazırdı:

***27 dekabr 1990-cı il. “Təbii qaz yoxdur... Səbəbi?”*** ...Naxçıvanın sərt, kəskin iqlimi onun sakinlərini yenə də imtahana çəkmişdir. Havaların birdən-birə soyuması, şaxtalı günlərin başlaması bir çox çətinliklər yaratmışdır. İndi yaşayış evlərində, müəssisə və təşkilatlarda təbii qazdan istifadə, demək olar ki, dayanmışdır. Məktəblərdə, uşaq tərbiyə ocaqlarında vəziyyət daha da acınacaqlıdır.

***19 iyul 1991-ci il. “Mineral su istehsalı niyə azalır? Gerilikdən çıxa bilmirik”*** ...Birliyimizin əhatə etdiyi “Badamlı”, “Sirab” mineral sudoldurma zavodlarının hər gün 1 milyon şüşə istehsal etmək imkanı vardır. Lakin bu imkanlardan səmərəli istifadə etmək üçün qarşıda həllini gözləyən problemlər vardır. Əslinə qalsa, təqsir su istehsalçılarında deyil. Son vaxtlar, elə indinin özündə də ölkəmizdə və muxtar respublikamızda butulka qıtlığı yaranıb. Mən deyərdim ki, milyardlarla boş butulka çatışmır. Buna görə də birliyimiz tələbatın yalnız 50-60 faizini ödəyir. Çatışmayan təkcə şüşə qab deyil, butulkanın ağzını bağlamaq üçün qapaq və etiket də çatışmır.

***9 avqust 1991-ci il. “Kəhrizlər niyə quruyur?”... Replika:*** Vaxtilə muxtar respublikamızda 400-ə yaxın kəhriz olub. İndi bu kəhrizlərdən 225-i insan əlinin hərarətinə möhtacdır. Qalanları isə bu qayğını gözləyə-gözləyə sıradan çıxıb. Halbuki həmin kəhrizlər məhv edilməsəydi, indi 1800 hektardan artıq sahəni suvarmaq mümkün olardı. Yüzlərlə ailə bu kəhrizlərin suyundan istifadə edərdi.

Yol salmaq, körpü düzəltmək, bulaq gözü




açmaq, kəhriz təmizləmək ta qədimlərdən elimizdə, obamızda xeyirxahlıq sayılıb. Sonra cavanlar əl-ələ verib hamının ürəyindən keçən arzunu həyata keçiriblər, bəs indi nə olub? Yəni doğrudanmı, müasir kəndlərimizin ağsaqqalları, fəalları öz müdrik sələflərinin ənənələrini unudublar?

***9 noyabr 1991-ci il. “Gənclər unutmasınlar ki… Həyatın sınağı yamandır”*** ... İndi çətin günlərdə yaşayırıq. Gələcək taleyimiz ötən hər günümüzlə bağlıdır. Gənclər el ağsaqqallarının harayına cavab verməlidirlər. Doğma yurdumuzdan Rusiyanın, Ukraynanın, Qazaxıstanın, Belarusun ucqarlarına bir tikə çörək dalınca baş götürüb gedən cavanlar respublikamızın indiki çətin məqamında bizə çox lazımdır. Axı torpaq, qadir əllər nə istəsə yetirə bilər. Buna görə də bərəkətli torpaqlarımız, dədə-baba sənətlərimiz, peşələrimiz cavanların yolunu səbirsizliklə gözləyir.

***22 yanvar 1992-ci il. “Arpaçayın problemləri”*** ... Şərur Şəhər Sanitar-Mühafizə İdarəsinin məişət tullantılarını çayın kənarına tökməsi elə bir antisanitariya vəziyyəti yaradıb ki, sözlə ifadə etmək çətindir. Hazırda iş o yerə çatıb ki, çayın bizim ərazidə tezliklə quruması təhlükəsi yaranıb. Bu mənada, çaydan ayrılan sol və sağ sahil kanallarının nizama salınması, xüsusilə vacibdir ki, su sərfi qaydaya düşsün və Arpaçayın axarı tükənməsin. Çayın sahilində qeyri-qanuni yerləşdirilən hər cür sex, müəssisə və kooperativlər oradan götürülməlidir. Biz təbiətimizin zərərləri bahasına 5-10 nəfərin qazancı üçün kədərli vəziyyətə göz yummamalıyıq. Arpaçayın dərdləri və xilası yolları, əsasən, bunlardır.

***8 avqust 1992-ci il. “Ağaclara balta vurularsa”*** ... Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri yaşıllıq və gözəllik sarıdan yaman kasıblayıb. İndi ümumi evlərin həyətlərində tüstülənən ocaqlarda yığılmış beşaltı quru budağın oduna qollu-budaqlı ağaclar da yanır. Elektrik enerjisi qıtlığı, qazın olmaması, adicə neftin tapılmaması adamları çox çətin vəziyyətə salmışdır. Elə buna görə də bağ və parklarda, prospekt və küçələrdə, meydanlarda gövdəli ağacların indi kötükləri cərgələnir. Adam ehtiyac içərisində qalanları da bəzən qınamır. Axı körpə uşaq ağlaya-ağlaya iki ayağını bir başmağa dirəyib bir stəkan çay tələb edəndə yazıq valideyn əlacsız qalır. O da ocaq yandırmaq üçün əl atır ağacları kəsməyə. Bunlar olsaydı, dərd yarı idi. Ancaq ən ağırı odur ki, şəhərin başçılarının razılığı ilə neçə-neçə komissiyon, kooperativ mağazalar düzəldənlər bağ və parklarda tikinti meydanı üçün ağacları, bəzək kollarını kütləvi surətdə kəsib-doğrayırlar.

***28 iyul 1993-cü il. “Yanacaq çatışmır, marşrutlar azalır”*** ... İndi Şərur kimi böyük rayonun Qarabağlar kəndi istisna olmaqla, heç bir yaşayış məntəqəsinə avtobus işləmir. Həmin rayondan Naxçıvan aeroportuna gələnlər və yaxud da aeroportdan rayona getməli olanlar çox hallarda 4-5 qat artıq pul ödəməli olurlar. Ordubada isə həftənin 3 günü avtobus olur.

Naxçıvan şəhərindən aeroporta avtobus ayrılıb. O da müntəzəm işləmir. Bakıdan gələn sərnişinlər aeroportdan Naxçıvana gəlmək və şəhərdən aeroporta getmək üçün 500, bəzən də 1000 rubl verməli olurlar.

***9 fevral 1994-cü il. “İşsizlik”*** ... Bizim yaşadığımız günlərdə işsizlik bir sosial bəladır. Biz ona bekarçılıq da deyirik. Bu, adamların həyat tərzini, əhvali-ruhiyyəsini korlayır, ailələri miskin vəziyyətə salır. Bir neçə il əvvəl mətbuatdan bizə aydın olurdu ki, xarici ölkələrdə işsizlər hər ay dövlətdən müavinət alırlar. İndi isə bizdə belə bir dövr və şərait yaranıb. Bazar iqtisadiyyatı və qiymətlərin bahalaşması, hələ heç bir ölkədə görünməmiş bir səviyyəyə qalxması blokadada yaşayan muxtar respublika əhalisinin güzəranını çətinləşdirir. Belə bir şəraitdə işsizlik getdikcə artır. Bu gün adamlar güzəranın çətinləşməsi problemi ilə üz-üzə dayanıblar.

***31 mart 1994-cü il. “Gələcəyimiz təhlükədədir”*** ...Təəssüf hissi ilə demək lazımdır ki, bu gün uşaqlara, yeniyetmə gənclərə dövlət səviyyəsində qayğı və diqqət unudulub.

Şəhər istilik sisteminin işləməməsi, elektrik enerjisinin fasilələrlə verilməsi ümumtəhsil müəssisələrində, orta ixtisas məktəblərində, texnikum və institutlarda dərslərin aylarla dayandırılmasına səbəb olur.

Ən acınacaqlı hal odur ki, uşaqlar təhsil almaq, oxumaq əvəzinə “biznes” azarına tutulublar. Doğrusu, əvvəllər yaşlılar da “alverçi” sözünü üstünə götürməyə bir növ xəcalət çəkirdilər. İndi isə leksikonumuza “alverçi” sözünü əvəz edən daha mədəni “biznesmen” sözü daxil olub. İndi çoxları 10-15 siqaret, 5-10 qutu konfeti küçədə yaşadığı evin qarşısında qabağına düzüb bizneslə məşğul olması ilə fəxr edir. Bax bizcə, bu da zamanın, dövranın ən böyük faciəsidir. Məktəblərdə dərslərin olmaması üzündən boş qalan uşaqlar mütaliə etmək, keçilmiş dərsləri təkrarlamaq əvəzinə alverlə məşğul olurlar.

***10 noyabr 1995-ci il. “Küçə və yollara diqqət yetirilsə”*** ... Şahbuz. Kükü körpüsü neçə aydır ki, uçmuşdur. Körpünün tam bərpası üçün görülən tədbirlər yarıtmazdır. Türkeş körpüsünün vəziyyəti də acınacaqlı haldadır. Onun da uçmaq təhlükəsi vardır. Babək. Nəzərabad körpüsünün məhəccərləri dağılmış, taxta dirək örtüyü çürüyüb sıradan çıxmışdır. Şərur. Naxçıvan şəhərindən Şərura doğru gedən yolda “Şorsu” körpüsündən Böyükdüz kəndinədək olan sahədə yolun qara örtük hissəsində əmələ gəlmiş çökmələr, çala-çuxurlar avtomobil nəqliyyatının intensiv hərəkətinə maneçilik törətməklə yanaşı, qəza hadisələrinin baş verməsinə səbəb olur. Sədərək-Naxçıvan-Ordubad yolunda vəziyyət xoşagəlməzdir. Sədərək gömrükxanasından Sədərək yolayrıcına qədər olan hərəkət hissəsində əmələ gəlmiş çökmələr, 28-30-cu kilometrdə yaranmış çalalar, Arpaçay körpüsünün üzərində və çıxışlarında yaranmış nahamarlıqlar nəqliyyatın sərbəst hərəkətini çətinləşdirir...

***6 dekabr 1995-ci il. “Qış ehtiyatlarına qayğı”*** ... Naxçıvan şəhərində və muxtar respublikanın digər rayon mərkəzlərində qazanxana və istilik sistemlərinin işə salınması, həqiqətən, çox çətindir. Keçən ayın 15-dən etibarən qış mövsümünün başlanmasına baxmayaraq, mazutun olmaması üzündən qazanxanalar işə salınmamışdır.

Son illərin müharibə və blokada şəraitinin ağırlığına dözən naxçıvanlılar həmişə olduğu kimi, yenə də inanırlar ki, hörmətli Prezidentimiz Heydər Əliyevin yeritdiyi daxili və xarici siyasəti nəticəsində Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayacaq və adamların yaşayışı üçün əlverişli zəmin yaranacaqdır.

Bəli, ötən 30 ilə bu cür şahidlik edib “Şərq qapısı” qəzeti. Çatışmazlıqları, düşmən təxribatlarını, bəzənsə kimlərinsə məsuliyyətsizliyi üzündən yaranan və yüzlərlə yuxarıdakı kimi yazılara çevrilən problemlərə dərhal münasibət bildirib, onu həll edən vasitələrdən biri olub. Elə bütün bunlara görə də nüfuzu ilbəil artıb, hər kəsin sevimli qəzetinə, hörmətlə yanaşdığı mətbu orqana çevrilib.

### *Blokada Naxçıvanının və rekordsmen diyarın qəzeti*

Diyarımız kimi, “Şərq qapısı” qəzeti ötən 30 ilin ilk onilliyinin çətinlikləri də daxil olmaqla, blokada və inkişafa qoşa şahidlik etməkdədir. Muxtar respublikanın inkişafını tarixləşdirmək üçün bölgə-bölgə gəzən, ən ucqar dağ kəndlərindən tutmuş şəhərlərimizədək dolaşan qəzet Naxçıvanın dünəni ilə bu günü arasında körpü olmaqla, hər gün gələcəyə doğru uğurlu addımları ilə ötən günün tarixini yazır. Bütün naxçıvanlılar kimi, bu qəzet də müstəqillik illərinin nəsibimizə olan maraqlı taleyini yaşayır, təbii ki, blokada Naxçıvanının və sürətli inkişaf edən qədim diyarın qəzeti olmaqla. 100 yaşının müdriklik işığını ötən 30 ilə salmaqla gələcəyə “ömrünün” ən yaddaqalan, unudulmaz anlarını daşıyır. Bu otuz ilə elə 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunmasını da daxil etsək və müharibə dövründə qəzetin səhifələrinin vətənpərvərlik, təəssübkeşlik sətirlərini xatırlasaq, həqiqətən, bu qocamanın yaşının – 100-ün 30-nun tamamilə fərqli bir dövr olduğunu hər kəs təsdiqləyər. Çünki həmin dövrə tarixin bir yeniliyi – blokada və inkişaf birlikdə sığıb. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin mayın 10-da qalib ölkənin ilk Prezidenti kimi Naxçıvana ilk səfəri zamanı bu diyarın müstəqillik illərində inkişafını dəyərli fikirləri ilə iki cümləyə sığdırdığı kimi: ***“Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb”.***

Blokada şəraitində rekordsmen diyarın mətbu orqanı olmaq isə, təbii ki, tarixin bir nəsibidir.

### *Yeni əsrdə yeni uğurlar, doğma qəzetim!*

Cəmi bir neçə aydan sonra hər birimizin ata ocağı, məslək birliyimiz, doğmamız olan “Şərq qapısı” qəzeti ömrünün ikinci əsrinə qədəm qoyacaqdır. Hazırda yubileyi münasibətilə təsdiq olunan Tədbirlər Planına əsasən silsilə tədbirlər keçirilir. Doğma qəzetimiz bütün yubiley illərində olduğu kimi dövlət qayğısı ilə əhatə olunur. Yerləşdiyi müasir binası, müasir avadanlıqlarla təchizatı, arxivinin, internet saytının yaradılması, işçilərin əməkhaqlarının ötən illərdə dəfələrlə artırılması, onlar arasında mənzillə təmin olunanların, fəxri adlara layiq görülənlərin olması, bir sözlə, hərtərəfli dövlət qayğısı elə 100-ün son 30 ilinə təsadüf edirsə, doğma qəzetimiz də yazarları qədər şanslıdır. Çünki bu gözəl diyarın hər bir inkişaf mənzərəsini köksündə əbədiləşdirir. Yubileyin mübarək, doğma qəzet. Jurnalistlərinin hər biri kimi, fəxr edirik ki, qürur duyduğumuz səhifələrində imzalarımız əbədiləşir.

**Mətanət MƏMMƏDOVA**

Əfsanəyə dönən ömürlər

# Ən ali zirvədir şəhidlik



***Arzusu, amalı Vətənin çətin zamanlarında yanında olmaq, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın azadlığı uğrunda şəhadət zirvəsinə yüksəlmək idi kapitan Aşur Cəmiyevin. Elə özünün də dediyi kimi: "...Vətən sağ olsun... Ən gözəl ölümdür şəhidlik, ən gözəl ölüm".***

Aşur Bəybala oğlu Cəmiyev 18 iyun 1989-cu ildə Şahbuz rayonunun Külüs kəndində anadan olmuşdu. Sonra ailəsi ilə birgə Naxçıvan şəhərinə köçən Aşur orta təhsilini də elə burada almışdı. Onunla ilk tanışlığımız da eyni məhəllədə qalmağımızdan, dostluğumuz isə eyni orta məktəbdə təhsil almağımızdan başlamışdı. Düzdür, o məndən yaşca böyük idi. Amma Aşuru tanıyan hər kəs etiraf edər ki, o, böyüklə böyük, kiçiklə kiçik olmağı yaxşı bacarır, hamı ilə şirin dil tapırdı. 2003-cü ildə orta təhsilinin qalan hissəsini Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə davam etdirən Aşur, sanki hələ hərbi liseyə daxil olarkən bilirmiş ailəsinin, bütün Azərbaycanın fəxri olacağını.

Liseydə oxuduğu müddətdə nizam-intizamı, fiziki hazırlığı yüksək səviyyədə olan Aşur döyüş ruhu və vətənpərvərliyi ilə hər zaman seçilirmiş. Liseyi uğurla bitirdikdən sonra Lənkəran sərhəd dəstəsinə təyinat alır. O, hələ burada xidmət etdiyi müddətdə ölkəmizin cənub sərhədlərinin təhlükəsizliyinin təmin olunması istiqamətində bir sıra uğurlu əməliyyatlarda iştirak etmiş və şücaətinə görə xüsusi fərqlənmişdi. Xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi" və "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley medalı ilə mükafatlandırılmışdı.

Bu şücaət, mərdlik, eyni zamanda ölümün gözünə hər zaman dik baxması onu məhz ən böyük arzusuna çatdırdı. Məlum olduğu kimi, 27 sentyabr 2020-ci il tarixdən etibarən Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə, haqq savaşına başladı. 30 il ərzində sülh yolu ilə geri alınmasına nail ola bilmədiyimiz torpaqlarımız ölkə başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli ordusu tərəfindən 44 gün ərzində düşməndən azad edildi. Qədim və şanlı tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini, yenilməzliyini və həmrəyliyini bir daha dünyaya nümayiş etdirdi.

Vətən müharibəsinin başladığı ilk gündən "Şəhidlikdən yüksək zirvə yoxdur", – deyən Aşur könüllü olaraq ərizə yazıb döyüşlərə qatılmaq istəyir. Dəfələrlə ərizəsinin geri dönməsinə baxmayaraq, o, inadından dönmür və nəhayət, döyüşlərə qatılır.

Döyüşün ilk günlərindən o, təlimlərdə topladığı yüksək təcrübə və taktika hesabına düşmənin ön xətlərdəki istehkamlarını yarmağa müvəffəq olur. Cəbhə dostlarının dediklərinə görə, hərb sənətinin sirlərini dərindən bilən Aşur düşdüyü hər mövqedə öndə getməyə tələsir, qələbə inamı ilə döyüşürdü. Bəlkə də, elə bu tələskənlik onu əbədiyyətə daha tez qovuşdurdu. O, heç vaxt şəxsi istəklərini, maraqlarını Vətənin mənafeyindən üstün tutmadı, əsl insanlıq, vətənpərvərlik nümunəsi sərgilədi son nəfəsinə qədər.

Müharibənin hər ötən günü bayraq, Vətən sevgisi, milli mənliyi, qüruru onun qələbə eşqini daha da alovlandırırdı. Kapitan Cəmiyev Zəngilana, Qubadlıya, ən çox da Şuşa qalasına bayraq sancmadan şəhid olmaq istəmirdi. Aşur Xudafərinə, Zəngilana bayraq sancan oğullar sırasında olmağın qürurunu yaşadı, bütün azərbaycanlılara yenidən əzəli, əbədi torpaqlarımıza qayıda bilmək qürurunu yaşatdı. Oktyabrın 6-sı gedən döyüşlərdə yaralansa da, 15 gün bunu hər kəsdən gizlətdi. Vətən ağrısını, acısını öz yarasından üstün tutdu, hər azad edilən torpağımızı öz yarasına məlhəm bildi. Nəhayət, döyüşlərdən birində şəhadət şərbətini içərək gözlərini əbədi olaraq yumdu.

Aşur şəhid olduqdan sonra cəbhədə silah yoldaşları ilə danışan ailəsinə isə onların sözü belə olur: "Sağ olun ki, bu xalq üçün Aşur kimi oğul yetişdirmisiniz. Çox qorxmaz, vətənpərvər, torpağa bağlı bir insan, ürəkli döyüşçü idi. Düşmənin xeyli sayda həm canlı qüvvəsini, həm də texnikasını məhv edib. Var olsun onu yetirən torpaq, böyüdən ata-ana..."

Şəhidin bacısı Ayşən xanım deyir ki, qardaşımın ad günü 18 iyuna – Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun şəhadətə qovuşduğu günə təsadüf edir. Bu səbəbdən də qardaşım qəhrəmanımızın şəhid olduğu gündən bəri heç vaxt öz doğum gününü qeyd etmir, "Mübarizin qisası haçan alınar, o zaman da qeyd edərik", – deyirdi. Bu gün artıq şəhidimiz həm də başqa bir arzusuna çatıb. Mübarizin, Aşurun timsalında bütün şəhid olan mübariz oğullarımızın qisası alınıb. Aşur həm də ailəli idi. Ondan geriyə 3 övladı yadigar qalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, eyni zamanda vəzifə borcunu ləyaqət və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Aşur Cəmiyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda" medalı, Azərbaycan Respublikasının Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Əminliklə deyə bilərik ki, Azərbaycan xalqı II Qarabağ müharibəsində əldə edilən parlaq və tarixi qələbəni ölkə başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli ordumuza borcludur. Aparılan haqq savaşı və əldə edilən qələbə torpaqlarımızın erməni işğalından azad edilməsi, beynəlxalq səviyyədə tanınmış sərhədlərimizin bərpası ilə yanaşı, həm də ölkədaxili məcburi miqrasiyanın əsas subyektini təşkil edən məcburi köçkünlərin doğma yurdlarına qayıtmasına da mühüm zəmin yaradıb. Ölkə Prezidenti cənab İlham Əliyev vaxtilə daxili məcburi miqrasiya proseslərinə məruz bir milyondan çox qaçqın və məcburi köçkünün ən böyük arzusunu, xəyalını gerçəkliyə çevirib. Artıq məcburi köçkünlərimiz hər ötən günə, hər açılan yeni sabaha böyük ümidlə baxırlar. 30 ilə yaxındır ki, qəlbi Vətən eşqi ilə yanan, doğma ev-eşiyindən didərgin düşərək daxili məcburi miqrasiyaya məruz qalan köçkünlərimiz öz dədə-baba yurdlarına qayıdıb. Bundan sonra da yüksək dövlət qayğısı ilə əhatə olunacaqlar.

**Arif BAYRAMOV**




***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planına əsasən iyulun 1-də "Naxçıvan" Universitetində mətbu orqanın yubiley tədbiri keçirilib.***

# "Naxçıvan" Universitetində "Şərq qapısı" qəzetinin yubiley tədbiri keçirilib

Tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq muxtar respublikada elm və təhsilin, jurnalistikanın inkişafına yaradılan hərtərəfli şəraitdən, göstərilən dövlət qayğısından danışıb. Rektor "Şərq qapısı" qəzetinin mətbuat tariximizdəki rolundan bəhs edib, doğma diyarımızda elmin, maarifin, ictimai fikrin inkişafına çox böyük əvəzsiz töhfələr verdiyini diqqətə çatdırıb.



"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova birəsrlik mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salaraq milli mətbuatımıza göstərilən diqqət və qayğıdan bəhs edib, muxtar respublika ziyalılarının, eləcə də "Naxçıvan" Universiteti əməkdaşlarının kənar müəllif kimi qəzetlə yaxın əlaqələrindən danışıb.

Bildirilib ki, 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulmuş, hələ XIX əsrin 90-cı illərindən meydana gələn qəzet nəşr etdirmək ideyası, nəhayət ki, gerçəyə çevrilmişdir. Vərəqə şəklində çap olunan "Cavanlar həyatı" qəzeti iki aya yaxın müddətdə fəaliyyət göstərmiş, 1921-ci ilin dekabrından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet nəşr olunmuşdur. 1922-ci ilin aprel ayından nəşr edilməyə başlayan "Şərq qapısı" qəzeti isə müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır.

Vurğulanıb ki, ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzetin 50 illik yubileyində "Şərəf nişanı" ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin mətbuata böyük qayğısının təzahürü idi. Tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən "Şərq qapısı" qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüş, 1990-cı il 20 yanvar tarixindən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirmişdir. Qəzet muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadiminin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Diqqətə çatdırılıb ki, "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamın imzalanması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymət olduğunu diqqətə çatdıran baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmış, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir.

Tədbirdə "Şərq qapısı" qəzetinin məsul katibinin müavini Məhəbbət Mirzəyeva, "Naxçıvan" Universitetinin əməkdaşlarından filologiya üzrə fəlsəfə doktorları – Əli Həşimli, Nüşabə Məmmədova və iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarov çıxış edərək "Şərq qapısı" qəzetinin fəaliyyətindən, milli mətbuatımızın inkişafındakı rolundan ətraflı söhbət açıblar. Tədbirdə qəzetin tarixi inkişaf yolu və iş prinsipini əks etdirən videoslayd nümayiş olunub.

Tədbirin sonunda "Naxçıvan" Universitetinin qəzetlə fəal əməkdaşlıq edən müəllimlərinə hədiyyələr təqdim edilib.

**✍ Aytac CƏFƏRLİ**

## Naxçıvan şahmatçıları beynəlxalq turnirin mükafatçıları sırasında





Serbiyanın Silver Leyk şəhərində təşkil olunan "Silver Lake – 2021 Open" beynəlxalq turniri bu gün başa çatıb. Turnirdə iştirak edən şahmatçılarımız uğurlu nəticələr göstəriblər. Ən yaxşı göstərici Nəsrin Babayevaya məxsusdur. 99 şahmatçının iştirak etdiyi "B" qrupunda mübarizə aparan yeniyetmə idmançımız 9 oyunda 5,5 xal toplayaraq qadınlar arasında birinci olub. Ümumi sıralamada ilk üçlükdən cəmi yarım xalla kənarda qalan Sadiq Qarayev isə 18 yaşadək şahmatçılar arasında ikinci olub. Aktivində 5 xalı olan Nazlı Hümbətova reytinq əmsalını 171 xal artırıb. "A" qrupunda yer alan Pərviz Qasımov 5 xal, Toğrul Həsənzadə isə 4 xal toplayıb.

Qeyd edək ki, iyulun 2-də Serbiyada daha bir turnir start götürür. Belqrad şəhərində keçiriləcək "Serbia Chess Open – 2021"-də Naxçıvan şahmatçıları da iştirak edəcək. Şahmatçılar "masters" və "amateurs" kateqoriyaları üzrə yarışacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Növbəti imtahanlar olub

İyulun 1-də Dövlət İmtahan Mərkəzi tərəfindən əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan, aprel ayında keçirilən buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən XI sinif şagirdləri üçün buraxılış imtahanı, eksternat qaydasında imtahan verənlər üçün buraxılış imtahanı keçirilib. İmtahanlar Bakı (bir hissəsində), Naxçıvan, Gəncə, Şəki, Bərdə, Sabirabad və Lənkəran şəhər və rayonlarında təşkil olunub.

Naxçıvan Muxtar Respublikasında 8 binada aparılan imtahanda, ümumilikdə, 1594 nəfər iştirak edib. Saat $11^{00}$-da başlanıb və 3 saat davam edən imtahanın keçirilməsi üçün zəruri şərait yaradılıb. İmtahanın təşkili üçün 135 zal, 22 rəhbər, 163 nəzarətçi ayrılıb.

İmtahan nəticələri yaxın günlərdə *http://dim.gov.az* saytında yerləşdiriləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2 iyul-2 avqust 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin *(036) 545-65-71* nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|
| **1. Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **1.1. Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681114 | Fleyta | 1 | 14 | |
| 681132 | Kamança | 1 | 12 | |
| 681134 | Klarnet | 1 | 12 | |
| 681137 | Qarmon | 1 | 18 | |
| 681140 | Nağara | 1 | 24 | |
| **1.2. Naxçıvan Şəhər Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681332 | Kamança | 1 | 4 | |
| 681336 | Qanun | 1 | 24 | |
| 681337 | Qarmon | 1 | 18 | |
| 681344 | Skripka | 1 | 8 | |
| 681346 | Tar | 2 | 28 | |
| **1.3. Naxçıvan Şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681440 | Nağara | 1 | 22 | |
| 681444 | Skripka | 1 | 6 | |
| 681449 | Vokal | 1 | 6 | |
| **1.4. Naxçıvan Şəhər 5 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681637 | Qarmon | 2 | 36 | |
| 681640 | Nağara | 2 | 42 | |
| **1.5. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi** | | | | |
| 681214 | Fleyta | 1 | 2 | |
| 681225 | Xoreoqrafiya | 3 | 70 | |
| 681234 | Klarnet | 1 | 6 | |
| 681240 | Nağara | 1 | 18 | |
| 681241 | Rəsm | 1 | 8 | |
| 681243 | Saz | 1 | 24 | |
| 681248 | Violonçel | 1 | 8 | |
| 681249 | Vokal | 1 | 6 | |
| **1.6. Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi** | | | | |
| 681522 | Xanəndəlik | 1 | 4 | |
| 681540 | Nağara | 1 | 14 | |
| **Cəmi:** | | **30 yer** | | |
| **2. Şərur Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **2.1. Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbi** | | | | |
| 682112 | Balaban | 1 | 12 | |
| 682115 | Fortepiano | 5 | 102 | |
| 682122 | Xanəndəlik | 1 | 6 | |
| 682125 | Xoreoqrafiya | 1 | 24 | |
| 682132 | Kamança | 2 | 44 | |
| 682134 | Klarnet | 1 | 2 | |
| 682135 | Konsertmeyster (fortepiano) | 4 | 92 | |
| 682136 | Qanun | 1 | 8 | |
| 682137 | Qarmon | 3 | 51 | |
| 682140 | Nağara | 2 | 38 | |
| 682141 | Rəsm | 2 | 30 | |
| 682143 | Saz | 1 | 20 | |
| 682144 | Skripka | 1 | 24 | |
| 682146 | Tar | 3 | 72 | |
| **2.2. Aralıq Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682415 | Fortepiano | 1 | 10 | |
| 682432 | Kamança | 1 | 16 | |
| 682435 | Konsertmeyster (fortepiano) | 1 | 24 | |
| 682437 | Qarmon | 1 | 24 | |
| 682440 | Nağara | 1 | 24 | |
| 682438 | Musiqi ədəbiyyatı | 1 | 15 | |
| 682446 | Tar | 1 | 24 | |
| **2.3. Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682212 | Balaban | 1 | 24 | |
| 682222 | Xanəndəlik | 1 | 6 | |
| 682232 | Kamança | 1 | 8 | |
| 682235 | Konsertmeyster (fortepiano) | 1 | 12 | |
| 682236 | Qanun | 2 | 36 | |
| 682238 | Musiqi ədəbiyyatı | 1 | 11 | |
| 682240 | Nağara | 2 | 32 | |
| 682243 | Saz | 1 | 6 | |
| 682246 | Tar | 1 | 4 | |
| **2.4. Ələkli Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682315 | Fortepiano | 2 | 30 | |
| 682332 | Kamança | 1 | 16 | |
| 682335 | Konsertmeyster (fortepiano) | 1 | 12 | |
| 682337 | Qarmon | 1 | 24 | |
| 682338 | Musiqi ədəbiyyatı | 1 | 18 | |
| 682340 | Nağara | 2 | 32 | |
| 682346 | Tar | 1 | 16 | |
| **2.5. Şəhriyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682615 | Fortepiano | 1 | 24 | |
| 682623 | Xor | 1 | 10 | |
| 682632 | Kamança | 1 | 24 | |
| 682635 | Konsertmeyster (fortepiano) | 2 | 31 | |
| 682637 | Qarmon | 2 | 39 | |
| 682640 | Nağara | 2 | 40 | |
| 682646 | Tar | 2 | 36 | |
| **2.6. Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682512 | Balaban | 2 | 40 | |
| 682515 | Fortepiano | 1 | 16 | |
| 682532 | Kamança | 1 | 12 | |
| 682535 | Konsertmeyster (fortepiano) | 2 | 40 | |
| 682537 | Qarmon | 2 | 36 | |
| 682540 | Nağara | 1 | 20 | |
| 682543 | Saz | 1 | 8 | |
| 682546 | Tar | 4 | 80 | |
| **Cəmi:** | | **80 yer** | | |
| **3. Babək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **3.1. Babək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 683115 | Fortepiano | 2 | 48 | |
| 683122 | Xanəndəlik | 1 | 2 | |
| 683135 | Konsertmeyster (fortepiano) | 2 | 45 | |
| 683143 | Saz | 1 | 6 | |
| **3.2. Cəhri Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 683335 | Konsertmeyster (fortepiano) | 1 | 6 | |
| 683337 | Qarmon | 1 | 15 | |
| 683340 | Nağara | 1 | 6 | |
| 683343 | Saz | 1 | 4 | |
| 683346 | Tar | 1 | 12 | |
| **3.3. Nehrəm Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 683212 | Balaban | 1 | 16 | |
| 683222 | Xanəndəlik | 1 | 24 | |
| 683235 | Konsertmeyster (fortepiano) | 2 | 29 | |
| 683237 | Qarmon | 1 | 6 | |
| 683240 | Nağara | 1 | 12 | |
| **3.4. Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683440 | Nağara | 1 | 20 | |
| 683443 | Saz | 1 | 16 | |
| 683446 | Tar | 2 | 30 | |
| **3.5. Zeynəddin Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683532 | Kamança | 2 | 40 | |
| 683535 | Konsertmeyster (fortepiano) | 1 | 24 | |
| 683537 | Qarmon | 3 | 51 | |
| 683546 | Tar | 2 | 34 | |
| **Cəmi:** | | **29 yer** | | |
| **4. Ordubad Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **4.1. Ordubad Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 684115 | Fortepiano | 1 | 24 | |
| 684135 | Konsertmeyster (fortepiano) | 2 | 32 | |
| 684136 | Qanun | 1 | 24 | |
| 684137 | Qarmon | 1 | 24 | |
| 684138 | Musiqi ədəbiyyatı | 3 | 62 | |
| 684143 | Saz | 1 | 24 | |
| 684144 | Skripka | 3 | 62 | |
| 684149 | Vokal | 1 | 4 | |
| **4.2. Vənənd Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 684215 | Fortepiano | 2 | 30 | |
| 684222 | Xanəndəlik | 1 | 12 | |
| 684223 | Xor | 1 | 12 | |
| 684232 | Kamança | 2 | 40 | |
| 684234 | Klarnet | 1 | 12 | |
| 684235 | Konsertmeyster (fortepiano) | 4 | 85 | |
| 684238 | Musiqi ədəbiyyatı | 1 | 6 | |
| 684240 | Nağara | 1 | 14 | |
| 684243 | Saz | 1 | 12 | |
| 684244 | Skripka | 1 | 8 | |
| 684245 | Solfecio | 1 | 6 | |
| 684246 | Tar | 2 | 42 | |
| **Cəmi:** | | **31 yer** | | |
| **5. Culfa Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **5.1. Culfa Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 685112 | Balaban | 1 | 12 | |
| 685132 | Kamança | 2 | 28 | |
| 685137 | Qarmon | 2 | 35 | |
| 685138 | Musiqi ədəbiyyatı | 1 | 14 | |
| 685140 | Nağara | 1 | 14 | |
| 685144 | Skripka | 1 | 6 | |
| 685149 | Vokal | 1 | 8 | |
| **5.2. Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 685215 | Fortepiano | 2 | 36 | |
| 685222 | Xanəndəlik | 1 | 6 | |
| 685232 | Kamança | 2 | 48 | |
| 685235 | Konsertmeyster (fortepiano) | 1 | 15 | |
| 685238 | Musiqi ədəbiyyatı | 1 | 24 | |
| 685240 | Nağara | 1 | 22 | |
| 685243 | Saz | 1 | 12 | |
| 685244 | Skripka | 1 | 18 | |
| 685246 | Tar | 1 | 24 | |
| **Cəmi:** | | **20** | | |
| **6. Kəngərli Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **6.1. Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 686115 | Fortepiano | 1 | 24 | |
| 686132 | Kamança | 1 | 8 | |
| 686135 | Konsertmeyster (fortepiano) | 1 | 22 | |
| 686145 | Solfecio | 1 | 24 | |
| 686146 | Tar | 2 | 32 | |
| 686138 | Musiqi ədəbiyyatı | 1 | 24 | |
| **6.2. Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 686223 | Xor | 1 | 24 | |
| 686232 | Kamança | 1 | 16 | |
| 686235 | Konsertmeyster (fortepiano) | 1 | 16 | |
| 686237 | Qarmon | 2 | 45 | |
| 686240 | Nağara | 2 | 32 | |
| 686246 | Tar | 1 | 12 | |
| **Cəmi:** | | **15 yer** | | |
| **7. Şahbuz Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **7.1. Şahbuz Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 687112 | Balaban | 1 | 24 | |
| 687115 | Fortepiano | 5 | 102 | |
| 687135 | Konsertmeyster (fortepiano) | 1 | 12 | |
| 687138 | Musiqi ədəbiyyatı | 1 | 12 | |
| 687122 | Xanəndəlik | 2 | 48 | |
| 687137 | Qarmon | 1 | 16 | |
| 687140 | Nağara | 1 | 24 | |
| 687143 | Saz | 1 | 24 | |
| 687146 | Tar | 2 | 48 | |
| **7.2. Kolanı Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 687215 | Fortepiano | 1 | 22 | |
| 687223 | Xor | 1 | 6 | |
| 687232 | Kamança | 1 | 24 | |
| 687234 | Klarnet | 1 | 11 | |
| 687245 | Solfecio | 1 | 10 | |
| 687246 | Tar | 1 | 24 | |
| **Cəmi:** | | **21 yer** | | |
| **8. Sədərək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **8.1. Sədərək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 688112 | Balaban | 2 | 36 | |
| 688115 | Fortepiano | 2 | 34 | |
| 688132 | Kamança | 2 | 44 | |
| 688134 | Klarnet | 1 | 12 | |
| 688135 | Konsertmeyster (fortepiano) | 2 | 44 | |
| 688137 | Qarmon | 1 | 24 | |
| 688138 | Musiqi ədəbiyyatı | 1 | 22 | |
| 688140 | Nağara | 2 | 48 | |
| 688143 | Saz | 1 | 20 | |
| 688146 | Tar | 2 | 36 | |
| 688149 | Vokal | 1 | 16 | |
| **Cəmi:** | | **17 yer** | | |
| **Yekun:** | | **243 yer** | | |

### *İtmişdir*

Cəfərova Gülarə Əyyub qızının adına olan evin 12661 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Mahmudkənd sakini Hacıyev Nəriman İdris oğlunun adına verilmiş JN-301[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Əliyev Elnur Bayram oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Telli Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 523